**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# BÖYÜK QAFQAZ VİLAYƏTİNDƏ ƏHALİNİN YAŞAYIŞ KEYFİYYƏTİNİN DEMOQRAFİK İNKİŞAF PROBLEMLƏRİ

İxtisas: 5403.01 – İnsan coğrafiyası

Elm sahəsi: Coğrafiya

İddiaçı: **Turanə Mahmud qızı Hüseynova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun "Tibbi coğrafiya" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: coğrafiya elmləri doktoru, professor
**Zakir Namin oğlu Eminov**

Rəsmi opponentlər: coğrafiya elmləri doktoru, dosent
**Aydın İsmayıl oğlu İbrahimov**

coğrafiya üzrə fəlsəfə doktoru, dosent
**Samirə Oqtay qızı Ələkbərova**

coğrafiya üzrə fəlsəfə doktoru
**Famil Qağamalı oğlu Niftiyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun nəzdində fəaliyyət göstərən BFD 3.14 Birdəfəlik dissertasiya şurası

Dissertasiya şurasının sədri:
coğrafiya elmləri doktoru, dosent
_______________ **Məlikməmməd Xanoğlan oğlu Məmmədov**

Dissertasiya şurasının elmi katibi:
coğrafiya üzrə fəlsəfə doktoru,
dosent
_______________ **Ziyafət Bilal oğlu Ağayev**

Elmi seminarın sədri:
coğrafiya elmləri doktoru, dosent
_______________ **Nəriman Əziz oğlu Paşayev**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Ölkənin iqtisadi inkişafının əsas prinsipləri əhalinin sayına uyğun sosial-mədəni təsərrüfat obyektlərinin və infrastrukturun yaradılmasına, eləcə də əhalinin sosial müdafiəsinin təşkili ilə yaşayış keyfiyyətinin yüksəldilməsinə əsaslanır. Əhalinin yaşayış keyfiyyətinin yüksəldilməsi ölkələrin sosial-iqtisadi inkişaf problemlərinin həllində prioritet vəzifədir. Azərbaycan Respublikasında əhalinin yaşayış keyfiyyətinin yüksəldilməsi dövlətin apardığı sosial siyasətin əsas tərkib hissəsini təşkil edir. Lakin sosial-iqtisadi inkişafın təminatında əhalinin yaşayış keyfiyyəti problemlərinin araşdırılaraq ortaya çıxarılması, onların aradan qaldırılması istiqamətlərinin müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir. Bu problemlərin həll edilməsinin ən mühüm şərtlərindən biri kompleks qiymətləndirmə metodlarından geniş istifadə edilməsindən ibarətdir.

Yaşayış keyfiyyətinin inkişaf tempi vahid sosial-iqtisadi sistemdən çox asılıdır. Məlumdur ki, ölkədə keçid dövrü, təsərrüfat sahələrinin və istehsalın tənəzzülü əhalinin yaşayış keyfiyyətini aşağı salmışdır. Təsərrüfat sahələrində mövcud problemlər əhalinin gəlir əldə etmək imkanlarını azaltmış, infrastruktur sahələrinin inkişafının pisləşməsinə və yoxsulluq səviyyəsinin artmasına səbəb olmuşdur. Bununla yanaşı, dünya iqtisadiyyatında son illər baş vermiş maliyyə böhranları, infilyasiya və ölkəmizdə manatın devalvasiyası ilə əhalinin gəlirləri bir daha azalmış, məhsulların qiymətində baş verən artım isə əhalinin yaşayış keyfiyyətinə mənfi təsir etmişdir.

Azərbaycan Respublikasının ərazisinin mürəkkəb fiziki-coğrafi mövqeyə malik, sənaye mərkəzlərinin yerləşdiyi Böyük Qafqaz vilayətində əhalinin və məşğulluq sahələrinin məkan daxilində struktursuz yerləşdirilməsi urbanizasiya səviyyəsində regional fərqlərin ortaya çıxmasına və müəyyən yaşayış məntəqələrində əhalinin azalmasına səbəb olmuşdur. Vilayətin əsas gəlir gətirən sahələrinin Bakı iqtisadi rayonunda olduğunu nəzərə alsaq, digər rayonlardan buraya miqrasiya axımının yüksək olduğunu görə bilərik. Bu baxımdan, mövcud ehtiyatlardan səmərəli istifadə etməklə dayanıqlı sosial-iqtisadi inkişafın təmin edilməsi,

yoxsulluğun azaldılması, yaşayış keyfiyyətinin yaxşılaşdırılması, regionların sosial-iqtisadi cəhətdən balansında müvazinətin olması dövlətin qarşısında duran əsas həlli tələb olunan istiqamətlərdəndir. Lakin problemin həlli yolları bu günə qədər qalmaqda davam edir. Bu çatışmazlığı nəzərə alaraq Böyük Qafqaz vilayətində əhalinin yaşayış kefiyyətinin demoqrafik inkişaf problemlərinin öyrənilməsi ilə əlaqədar dissertasiya işinin yerinə yetirilməsinə böyük ehtiyac vardır.

Əhalinin yaşayış keyfiyyətini C.F.Alfredo, D.F.Cella, V.M.Jerebin, A.N.Romanov, M.Ş.Salimov, E.V.Ryumina, T.E.Minyakova, A.V.Jalnina, C.B.Quliyev, U.K.Ələkbərov, A.N.Muradov və b., Azərbaycanda təsərrüfatın ərazi təşkili, sosial xidmət sahələri, əhalinin say dinamikası, məskunlaşması, demoqrafik inkişafı sahəsində Ş.Q.Dəmirqayayev, R.M.Mehrəliyev, Ə.M.Hacızadə, Ş.Y.Göyçayski, Ş.M.Muradov, T.G.Həsənov, V.Ə.Əfəndiyev, Ç.N.İsmayılov, Z.N.Eminov, N.Ə.Paşayev, N.H.Əyyubov, M.O.Sadıqov, Z.T.İmrani, R.N.Kərimov, E.S.Bədəlov, H.M.Tahirova və b. geniş tədqiqatlar aparmışlar.

**Tədqiqat obyekti və predmeti.** Tədqiqatın obyekti Azərbaycan Respublikasının şimal, şimal-qərb və şimal-şərq zonasında yerləşən Böyük Qafqaz vilayəti, predmeti isə əhalinin yaşayış keyfiyyətinin demoqrafik inkişaf problemlərinin tədqiqidir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi Böyük Qafqaz viləyətində əhalinin yaşayış keyfiyyətinin və demoqrafik aspektlərinin öyrənilməsi, onunla bağlı yaranmış demoqrafik problemlərin ortaya çıxarılması, demoqrafik inkişafa təsir edən əsas sosial-iqtisadi amillərin təhlil edilməsindən ibarətdir. Bununla yanaşı, yaşayış keyfiyyətinin qiymətləndirilməsi göstəricilərinin qarşılıqlı əlaqəsinin müəyyən edilməsi, həmçinin "Dövlət proqramları"nın Böyük Qafqaz vilayətində əhalinin yaşayış keyfiyyətinə və demoqrafik vəziyyətə təsirinin müəyyən edilməsidir.

Böyük Qafqaz vilayəti əhalisinin yaşayış keyfiyyətinin demoqrafik inkişaf problemlərini təyin etmək üçün dissertasiya işində aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- əhalinin yaşayış keyfiyyətini demoqrafik cəhətdən tədqiq etmək, yaşayış keyfiyyətinin qiymətləndirilməsi göstəricilərinin seçimində əsas meyarları müəyyən etmək;

- əhalinin yaşayış keyfiyyətinin demoqrafik inkişafında baş verən prosesləri ortaya çıxarmaq və ona təsir göstərən sosial-iqtisadi və ekoloji amilləri təhlil etmək;

- əhalinin yaşayış keyfiyyəti göstəricilərinin qarşılıqlı əlaqəsini müəyyən etmək, inzibati rayonların yaşayış keyfiyyətini qiymətləndirmək;

- əhalinin yaşayış keyfiyyətinin nizamlanması yollarını müəyyən etmək və dövlət proqramlarının rolunu araşdırmaq.

**Tədqiqat metodları.** Böyük Qafqaz vilayətində demoqrafik vəziyyət və əhalinin yaşayış keyfiyyəti göstəricilərində baş verən proseslərin tədqiqi üçün müqayisəli təhlil və demoqrafik analiz metodları, əhalinin yaşayış keyfiyyəti göstəricilərində baş verən dəyişikliklərin tədqiqi üçün sistem-struktur və əhalinin sosial-iqtisadi vəziyyətinin öyrənilməsi üçün çöl tədqiqatı, demoqrafik problemlərinin öyrənilməsi və aradan qaldırılması üçün coğrafi modelləşdirmə, əldə olunan məlumatların xəritə üzərinə köçürülməsi üçün kartoqrafik (ArcGIS proqram təminatı) metodlardan istifadə edilmişdir. Tədqiqat işində riyazi-statistik hesablamalar zamanı MS Excell və onun Xlstat kimi proqram təminatının emal üsullarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Böyük Qafqaz vilayətində əhalinin yaşayış keyfiyyətinin demoqrafik inkişafının formalaşmasının regional xüsusiyyətləri;
2. Böyük Qafqaz vilayətində əhalinin yaşayış keyfiyyətinə təsir edən demoqrafik, iqtisadi, sosial və ekoloji amillərin qiymətləndirilməsi və regional fərqlər;
3. Böyük Qafqaz vilayətində əhalinin yaşayış keyfiyyətində yaranmış problemlərin aradan qaldırılması istiqamətində inkişaf modelinin qurulması, əhalinin yaşayış keyfiyyətində baş verən dəyişikliklər və onların nizamlanmasında dövlət proqramlarının rolu.

**Tədqiqatın elmi yeniliyi.** Böyük Qafqaz vilayəti əhalisinin yaşayış keyfiyyətinin demoqrafik inkişaf problemlərinin aşkar edilməsi nəticəsində aşağıdakı elmi yeniliklər əldə edilmişdir:

- yaşayış keyfiyyətini xarakterizə edən göstəricilər sistemi tədqiq edilmiş və müəyyən olunmuşdur ki, əhalinin yaşayış keyfiyyətinə demoqrafik, sosial-iqtisadi amillərlə yanaşı, ekoloji amillər də təsir edir. Yaşayış keyfiyyətinə təsir edən amillərin təhlili əhalinin regional səviyyədə qiymətləndirilməsi üçün əsas meyarların seçilməsinə imkan vermişdir;

- ilk dəfə olaraq, Böyük Qafqaz vilayətinin inzibati rayonları üzrə demoqrafik, iqtisadi, sosial və ekoloji amillərdən ibarət yaşayış keyfiyyətinin seçilmiş 30 göstəricisi eyni əmsala gətirilərək indeksləşdirilmiş və müqayisə nəticəsində regional fərqlərin kəskin olduğu müəyyən edilmişdir;

- əhalinin yaşayış keyfiyyətinə təsir edən göstəricilər qiymətləndirilmiş və ilk dəfə olaraq, vilayət üzrə Yaşayış Keyfiyyəti İndeksi hesablanmışdır;

- Böyük Qafqaz vilayətində əhalinin yaşayış keyfiyyətinin yaxşılaşdırılması və demoqrafik proseslərin tənzimlənməsi istiqamətində yeni dövlət proqramlarının qəbul edilməsinin vacibliyi əsaslandırılmış və regional yaşayış keyfiyyətinin artırılması üçün inkişaf modeli təklif edilmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqat işində alınmış nəticə və tövsiyələrdən ayrı-ayrı iqtisadi rayonlarda, həmçinin ölkədə sosial müdafiə proqramlarının hazırlanması, əhalinin yaşayış keyfiyyətinin yüksəldilməsi, rifah halının yaxşılaşdırılması, demoqrafik problemlərin tənzimlənməsi zamanı istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas məzmunu və nəticələri beynəlxalq və respublika səviyyəsində keçirilən elmi forum və konfranslarda məruzə edilmişdir. Onlara akad. H.Ə.Əliyevin anadan olmasının 110 illiyinə həsr olunmuş "İnsan və ətraf mühit münasibətləri" mövzusunda respublika elmi konfransı (Bakı, 2017), Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə həsr olunmuş "Bazar iqtisadiyyatı şəraitində torpaq idarəçiliyi, nailiyyət və müasir çağırışlar" mövzusunda respublika elmi-praktiki konfransı (Bakı, 2018), Ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş "Dayanıqlı inkişaf məqsədləri: mövcud

vəziyyət və perspektivləri" mövzusunda beynəlxalq konfrans (Bakı, 2019), "Azərbaycanda və Rusiyada insan coğrafiyası: XXI əsrdə inkişafın əsas yolları" mövzusunda beynəlxalq konfrans (Bakı, 2019), Sumqayıt şəhərinin 70 illik yubileyinə həsr olunmuş "Coğrafiyanın müasir problemləri" adlı respublika konfransı (Sumqayıt, 2019), «Международный демографический форум: материалы заседания» (Воронеж, 2020), Международный демографический форум «Демография и глобальные вызовы», (Воронеж, 2021), "Turizm və rekreasiya XXI əsrdə: problemlər və perspektivlər" mövzusunda beynəlxalq konfrans (Bakı, 2021), Akademik Həsən Əliyevin anadan olmasının 115-ci ildönümünə həsr olunmuş "Ekologiya: təbiət və cəmiyyət problemləri" adlı respublika elmi konfransı (Bakı, 2022), "Azərbaycanın su təsərrüfatı sektorunun inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır" mövzusunda elmi-praktiki konfrans (Bakı, 2023),"Heydər Əliyevin Azərbaycanda elm və təhsilin inkişafında rolu" adlı respublika elmi-praktiki konfrans (Bakı, 2023), Туризм и рекреация: инновации и ГИС-технологии: материалы XV Международной научно-практической конференции (Астрахань, 2023) və s. aiddir.

Dissertasiya işinin məzmununa dair 27 adda elmi məqalə və konfrans materialı çap olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun "Tibbi coğrafiya" şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiya işinin strukturu.** Dissertasiya işi giriş, 3 fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir. İşin həcmi 158 səhifədir. İş 4 şəkil, 6 xəritə, 15 qrafik, 5 düstur, 24 cədvəl, 153 adda ədəbiyyat siyahısından ibarətdir. Giriş – 5 səhifə, I fəsil – 30 səhifə, II fəsil – 59 səhifə, III fəsil – 46 səhifə, nəticə – 2 səhifə, ədəbiyyat siyahısı – 14 səhifədir. Cədvəlsiz, qrafiksiz, şəkilsiz və ədəbiyyat siyahısız 232396 işarədən ibarətdir.

# TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı və işlənmə dərəcəsi, məqsəd və vəzifələri, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, elmi yeniliklər, tədqiqatın obyekti və predmeti, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi verilmişdir.

Dissertasiya işinin birinci fəsli “**Əhalinin demoqrafik vəziyyətinin və yaşayış keyfiyyətinin öyrənilməsinin nəzəri-metodiki əsasları”**na həsr olunmuşdur. Burada əhalinin yaşayış keyfiyyəti anlayışı və onun öyrənilməsinin əhəmiyyəti, nəzəri-metodiki əsasları verilmişdir. Məlumdur ki, “yaşayış keyfiyyəti” anlayışının vahid təyinedici meyarı yoxdur. BMT-nin hesabatlarında “yaşayış keyfiyyəti” anlayışı insanların konkret vaxt ərzində istehlak etdikləri mal və xidmətlərin həcmi, maddi və mənəvi tələbatların ödənilməsi dərəcəsi kimi izah edilir[1]. Bu barədə müəyyən dövr ərzində fərqli fikirlər söylənilsə də, ümumi nəzəriyyə əhalinin keyfiyyətli yaşamasına əsaslanır. Rus tədqiqatçıları V.M.Jerebin və A.N.Romanovaya görə, yaşayış keyfiyyəti, əhalinin öz həyat tərzləri üçün vacib olan müxtəlif tələb və maraqlardan nə dərəcədə razı qalmasıdır[2]. Amerika iqtisadçısı J.Fosterə görə, yaşayış keyfiyyəti əhalinin məskunlaşmasından, ərzaq məhsullarının keyfiyyətindən, əhalinin gəlirlərindən, ətraf mühitin çirklənməsindən və s. asılıdır[3]. Azərbaycan tədqiqatçılarından C.B.Quliyevə görə, yaşayış keyfiyyəti insanların fiziki, mənəvi və sosial tələbatının təmin edilməsi deməkdir[4]. Z.N.Eminova görə, yaşayış keyfiyyəti əhalinin həyat fəaliyyətinin, məskunlaşdığı yerin, yaşayış şəraitinin, kommunikasiya təminatının keyfiyyətini və digər göstəriciləri əhatə edən maddi və mənəvi tələbatın təmin edilməsidir[5]. Beləliklə,

---

[1] UNDP, Human Development Report / – New York: – 2010. –238 p.

[2] Жеребин, Б.М. Уровень жизни населения / Б.М. Жеребин, А.Н. Романов. – Москва, – 2002. – 592 с.

[3] Foster, J.; Greer, J.; Thorbecke, E. A Class of Decomposable Poverty Measures // Econometrica. – v. 52(3). – 1984. – pp. 761-766.

[4] Quliyev, C.B. Həyat səviyyəsi: yoxsulluğu törədən və azaldan sosial-iqtisadi amillər / C.B.Quliyev. – Bakı: Avropa, – 2011. – 240 s.

[5] Eminov, Z.N. Azərbaycan Respublikasında əhalinin həyat keyfiyyətinin müasir vəziyyəti / Z.N.Eminov, S.İ.Rzayeva, – Bakı: Region Press, – 2022. – 240 s.

yaşayış keyfiyyəti anlayışı əhalinin keyfiyyətli xidmətlərlə təmin olunmasını nəzərdə tutur və bu zaman yalnız statistik rəqəmlərdən deyil, insanların özlərinin də əlverişli həyat şəraiti, rahatlığı, yaşadığı mühitin vəziyyəti ilə əlaqədar münasibəti nəzərə alınır. Belə yanaşma insanların dünyagörüşü, həyata baxışı və s. xarakterik xüsusiyyətlərinə görə bir-birindən tamamilə fərqlənə bilər.

Dissertasiyanın bu bölməsində yaşayış keyfiyyətinin qiymətləndirilmə göstəricilərinin seçimində əsas meyarlar da təhlil olunmuşdur. Bir sıra beynəlxalq təşkilatlar əhalinin yaşayış keyfiyyətini qiymətləndirimək üçün öz maraqlarına və mövcud şəraitə uyğun gələn göstəricilərdən ibarət hesabatlar hazırlayır[6]. Bu anlayışı dünya ölkələrində tədqiqatçılar təhlil edilən ölkələrin inkişaf səviyyəsinə uyğun olaraq, müxtəlif yanaşmalarla qiymətləndirdiklərinə görə onu təyin edən göstəricilər də müxtəlif olmuşdur. Hal-hazırda yaşayış keyfiyyətini səciyyələndirən vahid ümumiləşdirilmiş göstəricilər sistemi yoxdur. 1990-cı ildən etibarən, beynəlxalq səviyyədə yaşayış keyfiyyətini qiymətləndirmək üçün Birləşmiş Millətlər Təşkilatı İnsan İnkişafı İndeksindən (İİİ) istifadə edir.

Əhalinin yaşayış keyfiyyəti insanların ehtiyaclarından asılı olmaqla, onların maddi, mənəvi və sosial ehtiyaclarının ödənilməsi kimi başa düşülür. Bu ehtiyaclar ölkənin və ya regionların inkişafı ilə sıx bağlıdır. Ona görə də, yaşayış keyfiyyətinin qiymətləndirilməsi meyarları ölkələr üzrə müxtəlifdir. Bütün ölkələr üzrə ümumi qəbul olunmuş yaşayış keyfiyyəti göstəriciləri bunlardır: əhalinin gəlirləri, doğumda gözlənilən ömür müddəti, körpə ölümü, ana ölümü, təhsil səviyyəsi, səhiyyə imkanları, sosial xidmətlərin keyfiyyəti, ətraf mühitin keyfiyyəti və s.[7]. Bu göstəricilər tədqiqat ərazisində yaşayış keyfiyyətinin təhlili məsələlərində nəzərə alınacaq ilkin meyarlardır. Yaşayış keyfiyyətinin öyrənilməsində belə yanaşma nəinki demoqrafik, iqtisadi və sosial, hətta ekoloji amili də nəzərə alır. Belə ki, ətraf mühit əhalinin yaşayış keyfiəyyətinə təsir edən əsas amillərdən hesab olunur. Bu da ekoloji problemlərin olduğu ərazilərdə əhalinin yaşayış keyfiyyətinin qiymətləndirilməsinə təsir

[6] BMT-nin İnkişaf Proqramı, “İnsan İnkişafı” tədris vəsaiti. – Bakı: 2014. – 398 s.
[7] Quality of life: facts and views. Eurostat Statistical books. – 2015, – 268 p.

göstərir. Lakin ölkələrin inkişaf səviyyəsini müəyyən edərkən ekoloji amil nəzərə alınmır və İİİ-nin hesablanmasına birbaşa daxil edilmir. Buna baxmayaraq, ekoloji davamlılıq insan inkişafının mühüm aspekti kimi tanınır.

Yaşayış keyfiyyəti hər bir dövlətin sosial-iqtisadi inkişafını xarakterizə edən və qiymətləndirən əsas göstərici olduğundan, ona sağlamlıq, təhsil və gəlirdən əlavə daha geniş konteksdə baxmaq məqsədəuyğun olardı. Hazırda dünyada aparılan sosial siyasətin əsas məqsədi əhalinin yaşayış keyfiyyətinin yüksəldilməsindən, sosial rifahın təmin olunmasından, xidmət sahələrinin, ətraf mühitin keyfiyyətinin yüksəldilməsindən ibarətdir[8]. Müasir dövrdə əhalinin yaşayış keyfiyyətini tədqiq edərkən, tədqiqatçılar əhalinin sağlamlıq, məşğulluq və iş şəraitinin, təhsil almaq imkanlarının, mənzil şəraitinin və xidmət sahələrinin, istirahət və mədəniyyətin, ətraf mühitin kəmiyyət və keyfiyyət tərəflərinin təhlilinə xüsusi diqqət yetirirlər.

Dissertasiyanın ikinci fəsli **“Böyük Qafqaz vilayətində əhalinin yaşayış keyfiyyətinin demoqrafik inkişafının regional əsasları və ona təsir edən amillər”**ə həsr olunmuşdur. Bu fəsildə Böyük Qafqaz vilayəti və tərkibinə daxil olan iqtisadi rayonların əhalisinin yaşayış keyfiyyətinin formalaşmasında rolu olan göstəricilərin müasir vəziyyəti və regional xüsusiyyətləri təhlil olunmuşdur. Müasir dövrdə əhalinin yaşayış keyfiyyəti demoqrafik, sosial-iqtisadi və ekoloji aspektləri əks etdirən göstəricilər ilə müəyyən olunur. Bu məqsədlə əhalinin yaşayış keyfiyyətinin demoqrafik inkişaf xüsusiyyətləri təhlil edilmiş və ona təsir edən amillər göstərilmişdir.

Böyük Qafqaz vilayətinə Bakı, Abşeron-Xızı, Şəki-Zaqatala, Quba-Xaçmaz və Dağlıq Şirvan iqtisadi rayonları daxildir. Vilayətin sahəsi 28,6 min km$^2$ olub, ölkə ərazisinin 33,2%-ni əhatə edir[9]. Demoqrafik göstəricilər əhalinin yaşayış keyfiyyətinin müxtəlif

---

[8] Huseynova, T.M. An evaluation of the life quality and human development index (on the example of the Greater Caucasus province of the Republic of Azerbaijan) // – Kiev: Geography and tourism, – 2022. № 68, – pp. 29-37.

[9] Azərbaycan Respublikasının Coğrafiyası / red. R.M.Məmmədov. – Bakı: Avropa, – c. 3: Regional Coğrafiya. – 2015. – 400 s.

aspektlərinə təsir göstərir. 2022-ci ildə Böyük Qafqaz vilayətində əhalinin sayı 4705,2 min nəfər olmaqla, ölkə əhalisinin 46,5%-ni təşkil etmişdir. 2000-2022-ci illərdə vilayətdə 1328,6 min nəfər və ya 139,3% əhali artımı müşahidə edilmişdir. Böyük Qafqaz vilayəti üzrə əhalinin çox hissəsi Bakı, Sumqayıt və Abşerona miqrasiya edir. Miqrasiya demoqrafik inkişafı müəyyən edən amillərdən biri olmaqla yanaşı əhalinin yaşayış keyfiyyəti göstəricilərindən asılıdır. Miqrasiyaların çox hissəsi iqtisadi və sosial səbəblərdən baş verir. Daha yaxşı həyat şəraiti əldə etmək, yüksək sosial-mədəni xidmət imkanlarından istifadə etmək, yüksək məvacibli iş yerləri ilə təminat, təhsil almaq və s. kimi səbəblər əhalinin yaşayış keyfiyyətini müəyyən edən miqrasiya səbəbləridir. Respublika daxili miqrasiya kənd və şəhər əhalisinin nisbətinə mühüm təsir göstərir. 2022-ci ildə Böyük Qafqaz vilayətinin şəhər əhalisi 3561,0 min nəfər (75,7%), kənd əhalisi isə 1134,9 min nəfər (24,1%) olmuşdur.

Təbii artım əhalinin sayının əsas artım mənbəyi olmaqla, təhsil, səhiyyə və sosial xidmətlərə olan tələbi artırır. Bu xidmətlərin keyfiyyəti əhalinin yaşayış keyfiyyətinə birbaşa təsir edir. Böyük Qafqaz vilayətində təhlil edilən dövr ərzində müxtəlif tendensiyalar baş vermişdir (qrafik 1).




Mənbə: qrafik "Azərbaycanın demoqrafik göstəriciləri" məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Qrafik 1. Böyük Qafqaz vilayətində doğum, ölüm, təbii artım göstəriciləri

2019-cu ildən sonra doğum və təbii artımda azalma, ölüm hallarında isə kəskin artımın müşahidə edilməsinə səbəb Covid-19 pandemiyasının ölkəmizə ciddi təsir göstərməsi olmuşdur. Vilayətdə hər 1000 nəfərə təbii artım 2020-2021-ci illərdə 40% azalaraq 9-dan 3,6-ya, doğum 23,6% azalaraq 14,8-dən 11,3-ə enmişdir. Ölüm isə 32,8% artaraq, 5,8-dən 7,7-yə yüksəlmişdir. 2022-ci ildən sonra doğum və təbii artım artmış, ölüm halları isə yenidən azalmışdır.

Ölüm demoqrafik vəziyyətin qiymətləndirilməsi, əhalinin yaşayış keyfiyyətinin müəyyən edilməsi üçün əsas göstəricilərdən biri olmaqla, regionlarının sosial-iqtisadi inkişaf səviyyəsindən, əhalinin şəhər və ya kənddə yaşamasından, yaşayış keyfiyyətindən asılıdır[10]. Yaş qrupları üzrə ölüm hallarının təhlili zamanı körpə ölümünün yüksək olması nəzərə çarpır. 2000-ci ildə Böyük Qafqaz vilayətində 623 körpə ölümü, hər 1000 diri doğulan uşağa 18,9 körpə ölümü (şəhərlərdə 18,2, kəndlərdə 16,9) qeydə alınmışdır. 2022-ci ildə isə onların sayı azalmış mütləq hesabla 405, nisbi hesabla 8,8 körpə ölümü (şəhərlərdə 10,6, kəndlərdə 7,6) qeydə alınmışdır[11]. Şəhərlərdə xəstəxanaların sayı çox, tibbi xidmət yüksək olmasına baxmayaraq körpə ölümü yüksəkdir. Uşaq ölümü analara və uşağa göstərilən tibbi xidmətlərin səviyyəsindən, onların qidalanmasından, hamiləlik dövründə qadınların tibbi müayinələrdən keçməməsindən asılıdır. Qeyd edilən bu problemlər ana ölümünə də təsir göstərir. Ana ölümünə səbəb qadınların sağlamlığı, məşğulluğu, həyat tərzi və s. amilləri göstərmək olar.

Son illərdə doğum və təbii artım göstəricilərin azalmasına səbəb ailələrin çoxuşaqlılıq prinsipindən uzaqlaşması, sosial ehtiyaclara görə qadınların da işləməyə üstünlük verməsidir. Təbii artıma təsir göstərən bu proseslər, doğumun azalması ilə yaşlı nəslin payının artdığını göstərir. Qeyd edilənləri daha dəqiq təhlil etmək üçün Böyük Qafqaz vilayətində əhalinin yaş qruplarına görə bölgüsü aparılmış və ümumi əhalini 0-14 və 50 yaşdan yuxarı qruplara ayıraraq təhlil etmişik (cədvəl 1).

---

[10] Eminov, Z.N. Azərbaycan Respublikasında əhalinin həyat keyfiyyətinin müasir vəziyyəti / Z.N.Eminov, S.İ.Rzayeva, – Bakı: Region Press, – 2022. – 240 s.

[11] Azərbaycanın demoqrafik göstəriciləri–2022 / Statistik məcmuə, – Bakı: DSK, – 2023. – 593 s.

**Cədvəl 1**

**Böyük Qafqaz vilayətində əhalinin yaş strukturu**

| | Göstərici | 1999 | 2009 | 2019 | Tərəddüd |
|---|---|---|---|---|---|
| Min nəfər | Əhalinin ümumi sayı | 3376,6 | 3896,0 | 4339,5 | +962,9 |
| | 0-14 yaşda əhalinin sayı | 1015,6 | 871,8 | 929,1 | -86,5 |
| | 50 və yuxarı yaşda əhalinin sayı | 498,4 | 838,1 | 1149,2 | +650,8 |
| Faiz | 0-14 yaşda əhalinin ümumi əhalidə xüsusi çəkisi | 30,1 | 22,4 | 21,4 | -8,7 % |
| | 50 və yuxarı yaşda əhalinin ümumi əhalidə xüsusi çəkisi | 14,8 | 21,5 | 26,5 | +11,7% |

Mənbə: Cədvəl Azərbaycan Respublikasında əhalinin siyahıyaalınma materialları-1999 I cild, 2009 I cild və 2019 I cild əsasında tərtib edilmişdir.

0-14 yaşda əhalinin xüsusi çəkisi 1999-cu ildə 30,1%, 2009-cu ildə 22,4% idisə, 50 və yuxarı yaşda əhalinin xüsusi çəkisi müvafiq olaraq 14,8% və 21,5% olmuşdur. Bu o deməkdir ki, həmin dövrdə əhali proqressiv tipində olmuşdur. 2009-2019-cu illərdə 0-14 yaşda əhalinin xüsusi çəkisi 21,4% olduğu halda, 50 və yuxarı yaşda əhalinin xüsusi çəkisi 26,5%-ə qədər qalxmaqla əhalinin reqressiv tipinə keçmişdir. Bu bizə, son dövrlərdə Böyük Qafqaz vilayətində əhalinin yaşlanması prosesinin getdiyini deməyə imkan verir.

Əmək qabiliyyətli yaşda hər 100 nəfərə hesablanan yükün göstəricisi yaş strukturunun qiymətləndirilməsi üçün geniş istifadə olunur. Vilayətdə son 20 ildə ümumi demoqrafik yük əmsalı 1,4 dəfə, uşaqların asılılıq əmsalı 1,6 dəfə azalmış, yaşlıların asılılıq əmsalı isə 1,2 dəfə artmışdır. Bu da öz növbəsində qocalma indeksinin artmasına səbəb olmuşdur. Qocalma dedikdə, ümumi əhali arasında 65 yaşdan yuxarı əhalinin payı nəzərdə tutulur, qocalma indeksi isə yaşlı əhalinin xüsusi çəkisinin 14 yaşdan aşağı əhalinin xüsusi çəkisinə nisbətidir[12]. Böyük Qafqaz vilayəti üzrə bu indeks 1999-cu ildə 18,6 olduğu halda, 2019-cu ildə 1,9 dəfə artaraq 34,6-ya çatmışdır.

---

[12] Новоселова, С.В. Основы демографии. Пособие для государственных служащих / С.В. Новоселова, М.Б. Денисенко. Под общей редакцией Лапиной С.В. – Минск: Альтиора - Живые краски. – 2012. – 138 с.

Yaşlı əhalinin artması təbii artımın aşağı düşməsi, orta ömür müddətinin uzanması ilə sıx bağlıdır. Orta ömür müddəti əhalinin sağlamlıq vəziyyətini, tibbi xidmətlərin keyfiyyətini, qida təhlükəsizliyini və sosial-iqtisadi şəraitini əks etdirməklə, əhalinin yaşayış keyfiyyətini qiymətləndirmək üçün mühüm bir göstərici hesab olunur. Böyük Qafqaz vilayətində 2015-ci ilə nisbətən 2022-ci ildə doğulanda gözlənilən ömür müddəti 1,3 il artaraq 75,9 yaş olmuşdur (cədvəl 2).

**Cədvəl 2**

**İqtisadi rayonlarda əhalinin doğulanda gözlənilən orta ömür müddəti**

| İqtisadi rayonlar | 2015 | | 2020 | | 2022 | |
|---|---|---|---|---|---|---|
| | Qadın | Kişi | Qadın | Kişi | Qadın | Kişi |
| Bakı | 77,4 | 72,6 | 76,7 | 71,0 | 79,3 | 74,6 |
| Abşeron-Xızı | 78,4 | 72,5 | 77,0 | 69,6 | 79,4 | 74,7 |
| Şəki-Zaqatala | 76,6 | 71,9 | 76,7 | 70,1 | 77,7 | 73,6 |
| Quba-Xaçmaz | 76,3 | 71,1 | 76,3 | 67,0 | 78,2 | 72,7 |
| Dağlıq Şirvan | 77,6 | 72,1 | 76,3 | 68,6 | 77,3 | 71,8 |
| Vilayət | 77,3 | 72,0 | 76,6 | 68,8 | 78,4 | 73,5 |
| Ölkə | 77,6 | 72,7 | 76,5 | 70,1 | 78,4 | 73,6 |

Mənbə: Cədvəl "Azərbaycanda qadınlar və kişilər" statistik materialları əsasında tərtib edilmişdir.

İqtisadi rayonlar üzrə təhlillər göstərir ki, qadınların gözlənilən orta ömür müddəti kişilərdən daha yüksəkdir. Bu, dünya üzrə geniş yayılmış bir tendensiyadır. Qadınların orta ömür müddəti 76-79 yaş, kişilərdə isə 71-75 yaş arasında dəyişir[13]. Gözlənilən orta ömür müddətinin fərqliliyi, əhalinin həyat tərzi, sosial, iqtisadi və tibbi xidmətlərin keyfiyyəti ilə bağlıdır.

Regionların demoqrafik problemlərinin həlli sosial-iqtisadi inkişafın məqsədini - əhalinin yaşayış keyfiyyətinin yüksəldilməsini müəyyən edir. Ölkədə neft-qaz sənayesinin uzun illər ərzində aparıcı mövqe tutması, bu sahələrə ayrılan böyük həcmdə yerli və xarici investisiyalar təsərrüfatın ərazi təşkilində və sahə quruluşunda qeyri-

---

[13] Azərbaycanda qadınlar və kişilər–2022 / Statistik məcmuə, – Bakı: DSK, – 2023. – 257 s.

mütənasibliyə səbəb olmuşdur. Regionlarda sosial-iqtisadi məsələlərin həll edilməsi üçün güclü bir vasitə hesab edilən təsərrüfatın yerləşdirilməsində ərazi prinsipləri nəzərə alınmalıdır. Çünki təsərrüfatın yerləşməsi ərazinin təbii və insan resurslarından səmərəli istifadə edilməsinə şərait yaradır, yerli xammal və materialların istehsala cəlb edilməsinə səbəb olur, yeni iş yerləri yaratmaqla əhalinin ölkə ərazisində bərabər və proporsianal yerləşməsini təmin edir[14]. Ölkənin iqtisadi, sosial-mədəni, demoqrafik potensialının əsas hissəsi Bakı şəhərində cəmlənmişdir. 2022-ci ildə ölkənin məhsul istehsalının 81,0%-i, sənaye məhsulunun 93,8%-i, kənd təsərrüfatı məhsulunun 26,0%-i, pərakəndə ticarətin 71,5%-i, əsas kapitala yönəlmiş vəsaitin 62,4%-i, muzdlu işçilərin 66,6%-i, əhalinin gəlirlərinin 72,2%-i tədqiqat rayonunun payına düşmüşdür. Regional təhlil göstərir ki, ölkə üzrə ümumi məhsul istehsalının 72,3%-i, vilayət üzrə isə 89,2%-i Bakı şəhərinin payına düşür. Bu isə o deməkdir ki, digər iqtisadi rayonların ümumi məhsul istehsalında payı 1-2% təşkil edir[15]. Məşğulluq strukturunda da Bakı şəhəri ilə digər iqtisadi rayonlar arasında kəskin fərqlər mövcuddur (şəkil 1).

2022-ci ildə Böyük Qafqaz vilayətində məşğul əhalinin sayı 2309,6 min nəfər olmaqla, ölkədə payı 47,8% təşkil etmişdir. Həmin ildə vilayət üzrə məşğul əhalinin 51,2%-i Bakı şəhərində, 16,8%-i Abşeron-Xızı, 14,6%-i Şəki-Zaqatala, 10,8%-i Quba-Xaçmaz, 6,6%-i Dağlıq Şirvan iqtisadi rayonlarında çalışmışdır. Böyük Qafqaz vilayəti əhalisinin məşğuliyyət sahəsinin böyük hissəsi kənd təsərrüfatı (22,4%) və xidmət sahələrinin (31,1%) payına düşmüşdür[16].

---

[14] İmrani, Z.T. Azərbaycanda dayanıqlı inkişaf siyasətin regional aspektləri // "Azərbaycan regionlarının coğrafi problemləri" mövzusunda respublika elmi-praktiki konfransı, – Bakı: – 2016. – s. 101-104.

[15] Hüseynova, T.M. Əhalinin yaşayış keyfiyyətinə təsir edən sosial-iqtisadi amillər (Azərbaycan Respublikasının Böyük Qafqaz vilayəti timsalında) // – Türkiye: Akademik Tarih Ve Düşünce Dergisi, – 2024. №11(2), – s. 880-889.

[16] Eminov Z.N., Hüseynova T.M. Böyük Qafqaz vilayəti əhalisinin yaşayış keyfiyyətinin yaxşılaşdırılmasında məşğulluq probleminin həlli // – Bakı: ACC-nin əsərləri, Coğrafiya və təbii resurslar, – 2023. №1(19), – s. 67-74.




Mənbə: Dövlət Statistika Komitəsinin məlumatları əsasında iddiaçı tərəfindən ArcGİS proqramı vasitəsilə tərtib olunmuşdur.

Şəkil 1. Böyük Qafqaz vilayətində əhalinin məşğulluq strukturu xəritəsi, 2020

Yaşayış keyfiyyətinin artırılması, hər bir ölkənin sosial siyasətinin əsas məqsədlərindən biridir. Səhiyyə sistemi, sosial xidmətlərin mühüm bir sahəsi olaraq, əhalinin sağlamlığının qorunmasında əsas rol oynayır. 2022-ci ildə Böyük Qafqaz vilayətində hər 10 min nəfərə düşən həkim sayı 30,8, orta tibb heyəti 50,6, xəstəxana çarpayıları 33,5, müalicə poliklinikalarının gücü isə 97,6 təşkil etmişdir[17]. Statistik analizlər, son 22 ildə səhiyyə göstəricilərinin azaldığını göstərir. Bakı şəhərində müasir avadanlıqlar mövcud olsa da, digər rayonlarda köhnə avadanlıqların istifadəsi, kadr çatışmazlığı və xəstəxana çarpayılarının tələbatı ödəməməsi kimi problemlər hələ də mövcuddur. Bu hallar, əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinə mənfi təsir göstərir.

Sosial-iqtisadi inkişafın dayanıqlı olmasına təsir edən mühüm amillərdən biri də ətraf mühitin qorunmasıdır. İqlim dəyişmələrinin əsas səbəblərindən və dolayı yolla yaşayış keyfiyyətinə təsir edən əsas amillərdən biri atmosferin çirklənməsidir. Çirklənmə atmosferin şəffaflığını və qaz konsentrasiyasını pozaraq, iqlim dəyişmələrinə və əhalinin sağlamlığına təhlükə yaradır[18]. 2000-2022-ci illər ərzində vilayətdə ümumilikdə 2880 min ton çirkləndirici maddə atmosferə buraxılmışdır, bunun 2726 min tonu Bakı şəhərinin payına düşür. 2022-ci ildə atmosferə atılan çirkləndirici maddələrin 88,6%-i Bakı şəhərinə aiddir, digər iqtisadi rayonlar isə 0,1-3,7 min ton çirkləndirici maddə atmışdır[19]. Zərərli maddələrin azaldılması üçün regional və beynəlxalq əməkdaşlığın davam etdirilməsi zəruridir.

Dissertasiyanın üçüncü fəsli **“Böyük Qafqaz vilayətində əhalinin yaşayış keyfiyyətinə təsir edən əsas demoqrafik problemlər və onların nizamlanmasında Dövlət Proqramlarının rolu”**na həsr edilmişdir. Bu fəsildə yaşayış keyfiyyətinə təsir edən göstəricilərin qarşılıqlı əlaqəsi təhlil edilmişdir. Yaşayış keyfiyyətini formalaşdıran göstəricilər insan amilinin inkişafına yönəldiyi üçün vilayətdə İnsan İnkişafı İndeksinin (İİİ) qiymətləndirilməsi

---

[17] Azərbaycanın regionları-2022 / Statistik məcmuə, – Bakı: DSK, – 2023. – 865 s.
[18] Rzayeva, S.İ. Bakı və Sumqayıt şəhərlərində atmosfer havasının müasir ekoloji vəziyyəti və onun əhalinin sağlamlığına təsiri // – Bakı: Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri, c. 17, – 2012. – s. 512-516.
[19] Azərbaycanda ətraf mühit / Statistik məcmuə, – Bakı: DSK, – 2023. – 136 s.

əhəmiyyətlidir. Böyük Qafqaz vilayətində 1992-ci ildə İİİ 0,602 olub, 1992-2022-ci illər ərzində 25,7% artaraq 0,773-ə yüksəlmişdir. İİİ-nin orta ömür müddəti, təhsil və gəlir səviyyəsi ilə qarşılıqlı asılılığı təhlil edilmişdir[20]. Müəyyən edilmişdir ki, korrelyasiya əmsalının qiyməti müvafiq olaraq, 0.967, 0.965 və 0.992-dir. Determinasiya əmsalı ($R^2$) isə müvafiq olaraq 0,935, 0,932, 0,985-ə bərabərdir. Onlar arasındakı sıxlıq müvafiq olaraq 94%, 93% və 99% olmaqla, İİİ-nin gəlir səviyyəsindən daha çox asılı olduğu müəyyən edilmişdir (qrafik 2, a, b, c).




Mənbə: Qrafiklər Qlobal Məlumat Laboratoriyasının məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir[21].

Qrafik 2. İnsan İnkişafı İndeksinin orta ömür müddəti (a), təhsil (b), gəlir (c) səviyyəsindən və ətraf mühitin keyfiyyətindən (d) asılılığı

[20] Huseynova, T.M. Influence of the environment on human health and quality of life (on the example of the Greater Caucasus of the Republic of Azerbaijan) // – Almaty: Geography and water resources, – 2024. №1, – pp. 32-40.
[21] Global Data Lab.: [Electronic resource] / Nijmegen Center for Economics. – Nijmegen. URL: https://globaldatalab.org/shdi/table/shdi/AZE/?

Tullantılar ətraf mühitə mənfi təsir edərək əhalinin yaşayış keyfiyyətini aşağı salır. Atmosferə atılan çirkləndirici maddələrin miqdarı ilə İİİ arasındakı əlaqə təhlil edilmişdir (qrafik 2, d). Korrelyasiya əmsalının qiyməti (r=-0.939) göstərir ki, çirkləndirici maddələrin az olduğu illərdə İİİ daha yüksək olmuşdur. Determinasiya əmsalı 0,840-dır. Yəni, asılılıq 84%-dir. Ona görə də tədqiqat işində əhalinin yaşayış keyfiyyəti demoqrafik, iqtisadi, sosial və ekoloji amillərlə birlikdə qiymətləndirilmiş və ilk dəfə olaraq, göstəricilər indeksləşdirilərək müqayisəli təhlili aparılmışdır.

İndeks əldə etmək üçün verilən göstəricinin maksimum ($x_{max}$), minimum ($x_{min}$) və faktiki qiymətləri ($x_i$) götürülür. İstənilən $x$ göstəricisini indeksə çevirmək üçün aşağıdakı düsturlardan istifadə edilir[22]:

$$\dot{I}=\frac{X_i-X_{min}}{X_{max}-X_{min}} \quad \text{və ya} \quad \dot{I}=\frac{X_{max}-X_i}{X_{max}-X_{min}} \qquad (1)$$

Düsturlar müvafiq olaraq müsbət və mənfi göstəricilərin hesablanması üçündür və standartlaşdırılmış göstəricilər (0,1) çərçivəsindədir. İndeksləşdirmənin əsas məqsədi göstəriciləri eyni əmsala gətirməklə regionları müqayisə etməkdir. Təhlil zamanı müəyyən olunmuşdur ki, indekslərin xüsusi çəkiləri dəyişkəndir. Bu, regionların ərazisindən, sosial-iqtisadi inkişaf səviyyəsindən, əhali sayından və s. asılı olmuşdur. Tədqiqat işində əhalinin yaşayış keyfiyyətini qiymətləndirmək üçün müəllif tərəfindən Yaşayış Keyfiyyəti İndeksi (YKİ) təklif edilmişdir. YKİ 4 indeksin həndəsi ortası kimi hesablanır:

$$\text{YKİ}=\sqrt[4]{\dot{I}_d \times \dot{I}_i \times \dot{I}_s \times \dot{I}_{eko}} \qquad (2)$$

burada,
YKİ – yaşayış keyfiyyəti indeksi,
$\dot{I}_d$ – demoqrafik göstəricilərin indeksi,
$\dot{I}_i$ – iqtisadi göstəricilərin indeksi,
$\dot{I}_s$ – sosial göstəricilərin indeski,
$\dot{I}_{eko}$ – ekoloji göstəricilərin indeksidir.

[22] UNDP, Human Development Report / – New York: – 2020, – p. 412.

Regionlar sosial-iqtisadi inkişaf səviyyəsinə və ətraf mühit keyfiyyətinə görə bir-birindən tamamilə fərqlənir. Bu səbəbdən, hər iki aspektin təsirini daha dəqiq qiymətləndirmək üçün ekoloji və sosial-iqtisadi göstəriciləri ayrı-ayrılıqda hesablamaq daha məqsədəuyğundur. Ekoloji göstəricilərin ərazinin inkişaf səviyyəsində əhəmiyyətini vurğulamaq üçün E.V.Ryuminanın İİİ-nin hesablanması metodundan istifadə edilmişdir[23]. Belə ki, demoqrafik, iqtisadi və sosial göstəricilər üçün Yaşayış Keyfiyyəti İndeksi (YKİ) və ekoloji göstəricilər nəzərə alınmaqla Yaşayış Keyfiyyəti İndeksi ($YKİ_{eko}$) aşağıdakı kimi təklif edilmişdir:

$$YKİ = \sqrt[3]{İ_d \times İ_i \times İ_s} \qquad (3)$$

$$YKİ_{eko} = 1/4(3 \times YKİ + İ_{eko}) \qquad (4)$$

Göstəricilər zəif (0,100-0,399), orta (0,400-0,599), yüksək (0,600-0,899) və çox yüksək (0,900-1,00) olaraq qruplaşdırılmışdır.

Əhalinin yaşayış keyfiyyətini qiymətləndirmək üçün təklif edilən 3-cü və 4-cü düsturlar əsasında Yaşayış Keyfiyyəti İndeksi əmsalları hesablanmışdır (cədvəl 3). YKİ Böyük Qafqaz vilayətinin 18 inzibati rayonu üzrə 0,185-0,676 aralığında dəyişir. Bakı şəhəri inkişaf səviyyəsinə görə vilayətin digər inzibati rayonları ilə müqayisə edilməmişdir. Sumqayıt şəhəri yüksək, Abşeron, İsmayıllı, Balakən, Qax, Qəbələ və Şəki inzibati rayonları orta, Xızı, Ağsu, Qobustan, Şamaxı, Xaçmaz, Quba, Qusar, Siyəzən, Şabran, Oğuz və Zaqatala inzibati rayonları zəif pillədə yer almışlar. Çox yüksək pillədə yer alan inzibati rayon yoxdur. Demoqrafik və ekoloji indeks üzrə Abşeron, iqtisadi indeks üzrə Sumqayıt şəhəri, sosial indeks üzrə Qax rayonu 1-ci yerdə qərarlaşıb.

Böyük Qafqaz vilayətinin iqtisadi rayonlarının müqayisəsi zamanı YKİ üzrə sıralamada Bakı şəhəri 1-ci, Dağlıq Şirvan iqtisadi rayonu sonuncu yerdə durur. Qruplaşma üzrə Bakı şəhəri yüksək, Abşeron-Xızı və Şəki-Zaqatala orta, Quba-Xaçmaz və Dağlıq Şirvan iqtisadi rayonları isə zəif pillədə yer alırlar (şəkil 2).

---

[23] Рюмина, Е. В. Экологические аспекты оценки качества жизни // Экономика региона, – 2016. – Т. 12, вып.4, – С. 1113–1122.

**Cədvəl 3**

**Böyük Qafqaz vilayətinə daxil olan inzibati rayonların yaşayış keyfiyyətinin indeksləşdirilməsi**

| № | İnzibati rayonlar | Demoqrafik İndeks, $İ_d$ | İqtisadi İndeks, $İ_i$ | Sosial İndeks, $İ_s$ | Ekoloji İndeks, $İ_{eko}$ | Yaşayış Keyfiyyəti İndeksi, YKİ | $YKİ_{eko}$ |
|---|---|---|---|---|---|---|---|
| 1 | Sumqayıt | 0,530 | 0,754 | 0,773 | 0,352 | 0,676 | 0,595 |
| 2 | Abşeron | 0,537 | 0,406 | 0,707 | 0,898 | 0,536 | 0,627 |
| 3 | Xızı | 0,491 | 0,136 | 0,321 | 0,843 | 0,278 | 0,419 |
| 4 | Ağsu | 0,452 | 0,331 | 0,174 | 0,520 | 0,297 | 0,353 |
| 5 | İsmayıllı | 0,458 | 0,477 | 0,431 | 0,565 | 0,454 | 0,481 |
| 6 | Qobustan | 0,452 | 0,119 | 0,119 | 0,545 | 0,185 | 0,275 |
| 7 | Şamaxı | 0,452 | 0,499 | 0,180 | 0,541 | 0,351 | 0,399 |
| 8 | Xaçmaz | 0,460 | 0,743 | 0,089 | 0,505 | 0,314 | 0,362 |
| 9 | Quba | 0,485 | 0,591 | 0,170 | 0,508 | 0,365 | 0,401 |
| 10 | Qusar | 0,524 | 0,395 | 0,268 | 0,549 | 0,381 | 0,423 |
| 11 | Siyəzən | 0,506 | 0,308 | 0,362 | 0,707 | 0,384 | 0,465 |
| 12 | Şabran | 0,446 | 0,133 | 0,237 | 0,605 | 0,241 | 0,332 |
| 13 | Balakən | 0,503 | 0,474 | 0,301 | 0,504 | 0,415 | 0,437 |
| 14 | Qax | 0,455 | 0,399 | 0,653 | 0,576 | 0,491 | 0,512 |
| 15 | Qəbələ | 0,472 | 0,329 | 0,553 | 0,576 | 0,444 | 0,442 |
| 16 | Oğuz | 0,536 | 0,296 | 0,401 | 0,626 | 0,397 | 0,489 |
| 17 | Şəki | 0,479 | 0,506 | 0,389 | 0,541 | 0,455 | 0,476 |
| 18 | Zaqatala | 0,503 | 0,207 | 0,408 | 0,546 | 0,349 | 0,398 |

Mənbə: Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən təklif edilən düsturlar vasitəsilə hesablanmışdır[24].

[24] Azərbaycanın regionları–2022 / Statistik məcmuə, – Bakı: DSK, – 2023. – 865 s.




Şəkil 2. Böyük Qafqaz vilayətinin iqtisadi rayonlarının yaşayış keyfiyyəti indeksi üzrə paylanma xəritəsi

Dissertasiya işinin bu fəslində həmçinin əhalinin yaşayış keyfiyyətinin yüksəldilməsi üçün demoqrafik, sosial-iqtisadi və ekoloji problemlərin həllinə üstünlük verilmişdir. Müəyyən edilmişdir ki, əhalinin məşğulluq probleminin həlli yaşayış keyfiyyətinin yüksəlməsi üçün ən mühüm göstəricilərdən biridir. Müstəqillik illərinin əvvəllərində yaranan sosial-iqtisadi çətinliklərin qarşısının alınması, əhalinin yaşayış keyfiyyətinin yaxşılaşdırılması, onlara göstərilən xidmət sahələrinin keyfiyyətinin yüksəldilməsi üçün XX əsrin sonundan başlayaraq, sosial-iqtisadi islahatlar həyata keçirilməyə başlanıldı. Dünya təcrübəsində əhalinin yaşayış keyfiyyətini, həyat səviyyəsini, əhalinin maddi vəziyyətini, cəmiyyətin inkişafının sosial-iqtisadi aspektlərini hərtərəfli qiymətləndirmək üçün müxtəlif modellər təklif edilmişdir[25]. Böyük Qafqaz vilayətinin sosial-iqtisadi, ekoloji və demoqrafik şəraitini nəzərə alaraq iqtisadi rayonlarında və inzibati rayonlarda əhalinin məskunlaşmasının yaxşılaşdırılması və demoqrafik potensialının artırılması üçün inkişaf modellərinin qurulmasına ehtiyac vardır. Xarici dövlətlərdə aparılan təcrübə tədqiqatlarına əsaslanaraq, Böyük Qafqaz vilayəti əhalisinin yaşayış keyfiyyətinin yüksəldilməsi və regionların davamlı inkişafına nail olmaq üçün regional yaşayış keyfiyyəti modeli hazırlanmışdır (şəkil 3).

Bu modelin hazırlanması üçün vilayətin demoqrafik, sosial, iqtisadi, ekoloji və idarəetmə vəziyyəti nəzərə alınmışdır. Demoqrafik inkişafa nail olmaq üçün regionda doğum səviyyəsini təmin edə biləcək şəraitin yaradılması, ölüm səviyyəsinin azaldılması, əhalinin sağlamlığının və rifahın yaxşılaşdırılması hesabına ömür müddətinin uzadılması, miqrasiya proseslərinin tənzimlənməsi vacibdir. Əhalinin yaşayış keyfiyyəti cəmiyyətin demoqrafik, iqtisadi, sosial və ekoloji vəziyyəti özündə birləşdirən mürəkkəb və kompleks anlayışdır. Həmçinin, vilayətin davamlı inkişafının əsas prioritet istiqaməti əhalinin sağlamlığının möhkəmləndirilməsi, keyfiyyətli təhsil və demoqrafik inkişafın təmin edilməsidir.

[25] Жалнина, А.В. Экономический анализ качества жизни: монография / А.В. Жалнина, Б.И. Герасимов. – Тамбов : ИТГТУ, – 2006. – 144 с.




Şəkil 3. Regional yaşayış keyfiyyətinin artırılması üçün inkişaf modeli

Bu fəsildə həmçinin yaşayış keyfiyyətinin yaxşılaşdırılmasında dövlət proqramlarının rolu təhlil edilmişdir. Əhalinin orta ömür müddətinin uzadılması üçün ilbəil və vaxtaşırı tibbi müayinələrin aparılması, səhiyyə obyektlərinin maddi-texniki bazasının gücləndirilməsi, sanatoriya və reabilitasiya şəbəkəsinin inkişafı vacib şərtlər olmaqla yerinə yetirilməlidir. Sadalanan aspektlər, demoqrafik inkişafın əhəmiyyətli amilləri olmaqla, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə əsaslı təsir edir. Ona görə də, bu istiqamətdə tədbirlər planı daim işlənməli və ardıcıl həyata keçirilməlidir. Ölkədə, o cümlədən regionlarda, demoqrafik inkişafın, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, sosial-iqtisadi dəstəyin artırılması və miqrasiyaların nizamlanması vacibdir. Buna görə, regionlar üzrə onların inkişafı istiqamətində müxtəlif demoqrafik proqramların işlənib hazırlanması səmərəli hesab edilir.

## NƏTİCƏ

1. Əhalinin yaşayış keyfiyyətinə təsir edən demoqrafik amillərin tədqiqi zamanı aydın olur ki, təhlil edilən dövr ərzində Böyük Qafqaz vilayətində əhalinin sayı, doğum, ölüm, təbii artım, cins-yaş tərkibi, orta ömür müddətinin dəyişilməsi meyilləri müşahidə olunmuşdur. Ümumi əhali 39,3%, şəhər əhalisi 44,0%, kənd əhalisi isə 25,5% artmışdır. Doğum, təbii artım və nikahlar 1,5 dəfə azalmış, boşanmaların sayı 1,4 dəfə artmış, yaş strukturunda 0-14 yaşda əhali sayı 8,7% azalmış, 50 və yuxarı yaşda əhali sayı isə 11,7% artmışdır. Uşaqların asılılıq əmsalı 1,6 dəfə azalmış, yaşlıların asılılıq əmsalı isə 1,2 dəfə artmışdır. Bu da qocalma indeksinin 1,9 dəfə artmasına səbəb olmuşdur [4; 10; 13; 14; 16; 23].

2. Əhalinin yaşayış keyfiyyətinə təsir edən sosial-iqtisadi amillərin təhlili zamanı kəskin regional fərqlər müşahidə edilmişdir. Bakı şəhəri ilə vilayətin digər regionları arasında sosial-iqtisadi göstəricilərin hər nəfərə kəmiyyətləri arasında 2-3 dəfəyə qədər fərq vardır. İqtisadi, sosial, mədəni və demoqrafik potensialın kiçik ərazilərdə təmərküzləşməsi əhalinin sosial xidmət sahələri ilə təminatında problemlər yaradır, həmçinin ətraf ərazilərin, su hövzələrinin, atmosferin çirklənməsinə və məişət tullantılarının

artmasına səbəb olur. Bu da əhali sağlamlığına təsir etməklə yaşayış keyfiyyətini aşağı salır [9; 17; 22; 26].

3. Böyük Qafqaz vilayətində İnsan İnkişafı İndeksi ilə orta ömür müddəti, təhsil səviyyəsi, əhalinin gəlirləri arasında müsbət sıx korrelyasiya əlaqəsi (müvafiq qiymətləri r=0,967, r=0,965 və r=0,992), atmosferə atılan çirkləndirici maddələrin miqdarı ilə mənfi korrelyasiya əlaqəsi (r=-0,939) müşahidə edilmişdir. Ətraf mühit amilinin insan inkişafına təsir etdiyi müəyyən edilmişdir [18; 25].

4. Əhalinin yaşayış keyfiyyətinə təsir edən göstəricilər indeksləşdirilmiş və qarşılıqlı əlaqələri zamanı regional fərqlərin olması ortaya çıxmışdır. Yaşayış keyfiyyəti indeksi ilə demoqrafik, iqtisadi və sosial indekslər arasında müsbət korrelyasiya əlaqəsi (müvafiq olaraq, r=0,576, r=0,706, r=0,860) vardır. Ekoloji və iqtisadi indeks arasında isə korrelyasiya güclü deyil, xətti əlaqə mənfidir (r=-0,517).

5. Böyük Qafqaz vilayətinin tərkibinə daxil olan inzibati rayonların Yaşayış Keyfiyyəti İndeksi hesablanmış, qiymətləndirmə çox yüksək, yüksək, orta və zəif olmaqla qruplaşdırılmışdır. İndeksin orta qiyməti 0,390-dır. 8 inzibati rayon orta qiymətdən yuxarı, 10 inzibati rayon isə aşağı qiymət almışdır. Sumqayıt şəhəri yüksək, Abşeron, İsmayıllı, Balakən, Qax, Qəbələ və Şəki inzibati rayonları orta, Xızı, Ağsu, Qobustan, Şamaxı, Xaçmaz, Quba, Qusar, Siyəzən, Şabran, Oğuz və Zaqatala inzibati rayonları zəif pillədə yer almışlar. Çox yüksək pillədə yer alan inzibati rayon yoxdur.

6. Regional yaşayış keyfiyyətinin artırılması üçün inkişaf modelin təhlili zamanı məlum olmuşdur ki, əhalinin şəhərlərə axınının qarşısını almaq üçün kənd yerlərində aqrar sektorun inkişaf etdirilməsi, əhaliyə yüksək sosial-mədəni və məişət xidməti göstərilməsi, yerli işçi qüvvəsi üçün müxtəlif sektorlarda təhsil və peşə hazırlığı, müasir peşə və ixtisaslara uyğun iş yerlərinin açılması, əmək haqqı fərqinin aradan qaldırılması, ana və uşaqlara dövlət qayğısının artırılması, çoxuşaqlı ailələrə maliyyə yardımı göstərilməsi, ətraf mühit keyfiyyətinin artırılması və bunun nəticəsində demoqrafik potensialın yerlərdə saxlanılmasını təmin etmək vacibdir [20; 21; 23; 24].

## TƏKLİFLƏR

1. Demoqrafik proseslərdə baş verən dəyişikliklərin qanunauyğunluqlarını və bu proseslərə təsir edən sosial-iqtisadi amillərin kəmiyyət və keyfiyyət göstəricilərinin dəqiq müəyyənləşdirilməsi üçün yeni demoqrafik siyasətin həyata keçirilməsi zəruridir. Yeni demoqrafik siyasət, cəmiyyətin dinamikasına uyğunlaşaraq, əhalinin yaşayış keyfiyyətini yüksəltmək və davamlı inkişafı təmin etmək üçün mühüm bir vasitə olacaqdır.

2. Təklif olunan indeks vasitəsilə sosial, iqtisadi, demoqrafik və ekoloji göstəriciləri bir araya gətirərək, əhalinin yaşayış keyfiyyətini daha dəqiq qiymətləndirilməsi, problemlərin ortaya çıxarılması, müqayisəli təhlil aparılması ilə rəqabət mühitini formalaşdırmaq və gələcəkdə sosial-iqtisadi inkişafın prioritet istiqamətlərini müəyyən etmək üçün istifadə oluna bilər.

### Dissertasiya mövzusu üzrə çap olunmuş elmi işlər

1. Hüseynova, T.M. Şəki-Zaqatala iqtisadi rayonunda sosial sferanın inkişafının əsas istiqamətləri // "Azərbaycan Respublikasında demoqrafik inkişaf: əhali məskunlaşmasının perspektivləri və regional problemləri" mövzusunda respublika elmi konfransı. – Bakı: Avropa, – 12-13 sentyabr, – 2016, – s. 387-393.
2. Hüseynova, T.M. Şəki-Zaqatala iqtisadi rayonunda əhalinin təbii artımının inkişaf xüsusiyyətləri // Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri. Akad.H.Ə.Əliyevin anadan olmasının 110 illiyinə həsr olunmuş "İnsan və ətraf mühit münasibətləri" mövzusunda respublika elmi konfransı, – Bakı: Avropa, – 16 iyun, – 2017. c. 20. – s. 409-411.
3. Hüseynova, T.M. Böyük Qafqazın cənub-şərq yamacının torpaq ehtiyyatlarından səmərəli istifadə yolları // Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə həsr olunmuş "Bazar iqtisadiyyatı şəraitində torpaq idarəçiliyi, nailiyyətlər və müasir çağırışlar" mövzusunda

respublika elmi-praktiki konfransı, –Bakı: Avropa, – 7 may, – 2018, – s. 233-240 (Həmmüəllif: Hüseynov C.S.).
4. Hüseynova, T.M. Quba-Xaçmaz iqtisadi rayonunun demoqrafik inkişaf xüsusiyyətləri // – Bakı: Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri, Coğrafiya və təbii resurslar, – 2019. № 1 (9), – s. 55-60.
5. Hüseynova, T.M. Dağlıq-Şirvan iqtisadi rayonunda sosial xidmət sahələrinin ərazi təşkili və inkişafi // Ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş "Dayanıqlı inkişaf məqsədləri: mövcud vəziyyət və perspektivləri" beynəlxalq elmi-praktik konfransı, – Bakı: ADNSU, – 26 aprel, – 2019, – s. 294-296.
6. Hüseynova, T.M. Böyük Qafqaz vilayətində turizmin inkişafında təbii-iqlim amilinin rolu // Bakı Dövlət Universitetinin 100 illik yubileyinə həsr olunmuş "Davamlı inkişafın təmin olunmasında turizmin rolu" mövzusunda beynəlxalq elmi konfrans, – Bakı: BDU, – 29-30 may, – 2019, – s. 415-420 (Həmmüəllif: Hüseynov C.S.).
7. Hüseynova, T.M. Quba-Xaçmaz iqtisadi rayonunda sosial xidmət sahələrinin inkişaf istiqamətləri // "Azərbaycanda və Rusiyada insan coğrafiyası: XXI əsrdə inkişafın əsas yolları" mövzusunda beynəlxalq elmi konfrans, – Bakı: Avropa, – 10-14 may, – 2019, – s. 50-58.
8. Hüseynova, T.M. Dağlıq Şirvan iqtisadi rayonunda yaşayış keyfiyyətinin formalaşmasının sosial əsasları // Sumqayıt şəhərinin 70 illik yubileyinə həsr olunmuş "Coğrafiyanın müasir problemləri" mövzusunda respublika elmi konfransı, – Sumqayıt, – 24-25 oktyabr, – 2019, – s. 199-203.
9. Hüseynova, T.M. Böyük Qafqaz vilayətində əhalinin yaşayış keyfiyyətinin formalaşmasının sosial əsasları // – Naxçıvan: AMEA-nın Naxçıvan bölməsinin Elmi Əsərləri, – 2020. № 2, – s. 286-290.
10. Гусейнова, Т.М. Роль демографического фактора в формировании качества жизни в Республике Азербайджан,

на примере Большого Кавказского природного региона // Международный демографический форум: материалы заседания, – Воронеж: Цифровая полиграфия, – 22-24 октябрь, – 2020. – с. 177-181.
11. Hüseynova, T.M. Abşeron iqtisadi-coğrafi rayonunda əhalinin yaşayış keyfiyyətinin formalaşmasının sosial əsasları // – Bakı: Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri, Coğrafiya və təbii resurslar, – 2021. № 1(13), – s. 87-93.
12. Hüseynova, T.M. Böyük Qafqaz vilayətində əhalinin yaşayış keyfiyyətinin yaxşılaşdırılmasında turizmin rolu // "Turizm və rekreasiya XXI əsrdə: problemlər və perspektivlər" mövzusunda V Beynəlxalq elmi-praktik konfrans, – Bakı: [n.y.], – 5 noyabr, – 2021, – s. 171-175.
13. Hüseynova, T.M. Böyük Qafqaz təbii vilayətinin əhalisinin demoqrafik inkişaf xüsusiyyətləri // – Bakı: Azərbaycan Texniki Universitetinin Elmi Əsərləri, – 2021. № 1, – s. 222-227.
14. Гусейнова, Т.М. Влияние демографических показателей на качество жизни населения в Республике Азербайджан, на примере Большого Кавказского природного региона // Международный демографический форум Демография и глобальные вызовы. – Воронеж: Цифровая полиграфия, – 30 сентября – 2 октября, – 2021, – с. 485-490.
15. Huseynova, T.M. The impact of demographic development on life quality of the population in the Greater Caucasus region // – Bakı: "Gənc tədqiqatçı" elmi-praktiki jurnalı. – 2021. №2(7). – s. 139-147.
16. Hüseynova, T.M. Böyük Qafqaz vilayətində əhalinin təbii artımının inkişaf xüsusiyyətləri // "Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında təbii-təsərrüfat sistemlərinin təşkili və idarə edilməsi" mövzusunda elmi-praktiki konfrans, – Bakı: [n.y.], – 26 aprel, – 2022, – s. 181-191.
17. Hüseynova, T.M. Böyük Qafqaz vilayətində ekoloji vəziyyətin əhalinin yaşayış keyfiyyətinə təsiri problemləri // prof. N.Ş.Şirinovun 100 illik yubileyinə həsr olunmuş "İnsan və relyef

təbii təkamükünün əsas hissəsi kimi" mövzusunda elmi-praktik konfrans, – Bakı: [n.y.], – 25 yanvar, – 2022, – s. 185-195.
18. Huseynova, T.M. An evaluation of the life quality and human development index (on the example of the Greater Caucasus province of the Republic of Azerbaijan) // – Kyiv: Geography and tourism, – 2022. № 68, – pp. 29-37.
19. Hüseynova, T.M. Şəki-Zaqatala iqtisadi rayonunda sudan istifadənin əhalinin yaşayış keyfiyyətinə təsiri // "Azərbaycanın su təsərrüfatı sektorunun inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır" mövzusunda elmi-praktiki konfrans, – Bakı: Mütərcim, – 5 may, – 2023, – s. 109-113.
20. Hüseynova, T.M. Böyük Qafqaz vilayətində əhalinin iş yerləri ilə təminatının yaşayış keyfiyyətinin yüksəldilməsində rolu // "Heydər Əliyevin Azərbaycanda elm və təhsilin inkişafında rolu" mövzusunda respublika elmi-praktiki konfransı, – Bakı: [n.y.], – 10 may, – 2023, – s. 151-155.
21. Huseynova, T.M. A role of the tourism sector in improving employment of the population in the Greater Caucasus province of the Republic of Azerbaijan // Туризм и рекреация: инновации и ГИС-технологии: материалы XV Международной научно-практической конференции, – Астрахань, – 26-27 мая, – 2023, – pp. 51-54.
22. Hüseynova, T.M. Böyük Qafqaz vilayətində su probleminin əhalinin yaşayış keyfiyyətinə təsiri // – Bakı: Su problemləri: Elm və texnologiyalar, – 2023. №1(21), – s. 84-93.
23. Гусейнова, Т.М. Анализ количественных показателей качества жизни населения Азербайджанской Республики (в примере Большого Кавказского природного региона) // – St.Petersburg: East European Scientific Journal, – 2023. №12(97). – с. 4-10.
24. Hüseynova, T.M. Böyük Qafqaz vilayəti əhalisinin yaşayış keyfiyyətinin yaxşılaşdırılmasında məşğulluq probleminin həlli // – Bakı: Azərbaycan Coğrafiya Cəmiyyətinin Əsərləri,

Coğrafiya və təbii resurslar, – 2023. №1(19), – s. 67-74 (Həmmüəllif: Eminov Z.N.)
25. Huseynova, T.M. Influence of the environment on human health and quality of life (on the example of the Greater Caucasus of the Republic of Azerbaijan) // – Almaty: Geography and water resources, – 2024. №1, – pp. 32-40.
26. Hüseynova, T.M. Əhalinin yaşayış keyfiyyətinə təsir edən sosial-iqtisadi amillər (Azərbaycan Respublikasının Böyük Qafqaz vilayəti timsalında) // – Türkiye: Akademik Tarih Ve Düşünce Dergisi, – 2024. №11(2), – s. 880-889.
27. Гусейнова, Т.М. Воспроизводство населения как показатель качества жизни (на примере Большой Кавказской провинции Азербайджанской Республики) // – Астана: Вестник Евразийского национального университета имени Л.Н. Гумилева. Серия Химия. География. Экология, – 2024. №3(148), – с. 80-92.

Dissertasiyanın müdafiəsi 07 fevral 2025-ci il tarixində saat $14^{00}$-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun nəzdində fəaliyyət göstərən BFD 3.14 Birdəfəlik dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Ünvan: AZ 1143, Bakı ş., H.Cavid pr. 115.
E-mail: igaz@geo.science.az

Dissertasiya ilə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları https://www.igaz.az/az rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 06 yanvar 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 25.12. 2024

Kağızın formatı: A5

Həcm: 35072

Tiraj: 100